# İdman ictimaiyyətinin diqqəti Bakı Olimpiya Stadionuna yönəlib

Dünya mətbuatı "Bakı-2015" I Avropa Oyunlarının bağlanış mərasiminin də yüksək səviyyədə keçiriləcəyindən yazır.

AZƏRTAC xəbər verir ki, "aroundtherings.com" saytında yayılan məqalədə hazırda beynəlxalq idman ictimaiyyətinin diqqətinin Bakı Olimpiya Stadionuna yönəldiyi bildirilir.

"Hər kəs açılış mərasimində olduğu kimi, finalda da əsrarəngiz şou gözləyir", - deyə məqalədə vurğulanır. Qeyd edilir ki, bu şounu 10 minlərlə tamaşaçı canlı, yüz milyonlarla tamaşaçı isə efir vasitəsilə izləyəcək.




Məqalədə Azərbaycanın gənclər və idman naziri Azad Rəhimova istinadən vurğulanır ki, "Bakı-2015"ə evsahibliyi etməklə Azərbaycan dünya idman tarixində yeni səhifə açdı və beləliklə, Azərbaycan həm də növbəti beynəlxalq idman yarışlarının başlanğıc meydanı olmaq imkanı qazandı.

"Avropa Oyunlarının bağlanış mərasimini təşkil etmək mənim üçün böyük şərəfdir. Çünki bu tədbir ilk dəfədir ki, keçirilir. Biz müasirliklə qədimiliyin sintezini ortaya qoymuşuq və bu da çox maraqlı alınıb", - deyə bağlanış mərasiminin bədii direktoru, 25 illik təcrübəyə malik Ceyms Hedli qeyd edib.